İSSN-0207-4710
2012-ci il

# GÖYƏRÇİN

3





Hekayə



Şeir



Nağıl

## MİKAYIL RZAQULUZADƏ

# BAHARIN ELÇİLƏRİ

Balaca Aytac quşları, torağayları, sığırçınları, qaranquşları çox sevir. Çünki bu quşlar bizə nəğmələr oxuyub ilin ən sevimli fəsli olan baharın gəlişini xəbər verirlər. Hələ dan ulduzu sönməmiş torağaylar göylərə ucalıb nəğmələri ilə səhəri qarşılayırlar. Sığırçınlar ən uca budaqlara qonaraq, qanadlarını çırpa-çırpa səhər nəğməsi oxuyurlar. Qaran-quşlar isə evlərin dövrəsinə hərlənə-hərlənə şirin-şirin cıvıldəşirlər.

Aytac hər səhər evlərininin yanındakı kiçik təpəciyə darı və çörək qırıntıları səpir. Quşlar gəlib dənləyirlər.

Qız qaranquşları o biri quşlardan daha çox sevir. Çünki babası demişdi ki, qaranquşlar baharın carçılarıdır. Onlar gözəl-gözəl nəğmələri ilə baharı səsləyir, onun havasını, günəşin şəfəqlərini, güllərin-çiçəklərin ətrini xırdaca qanadlarında gətirib gəlirlər.

Aytacgil Bakının yaxınlığındakı kənddə yaşayır. Onların mətbəxində təndir vardır. Qaranquşlar uça-uça təndir bacalarından içəri girirlər. Dimdiklərində gətirdikləri çör-çöpdən divarda özlərinə yuva tikirlər. Ata-ana qaranquşlar balaları üçün yuvaya dən gətirirlər.

Balalar böyüyüb boya-başa çatanda, qaranquşlar səhərdən-axşamadək bacaların dövrəsinə hərlənirlər. Elektrik tellərinə, ağac budaqlarına qonurlar. Aytac da onlara maraqla tamaşa edir.

Keçən yaz belə bir əhvalat oldu. Aytacgilə qonaq gəlmişdi. Onlar kabab bişirmək istədilər. Külək qopdu. Ocağı həyətdə yox, mətbəxdə qaladılar. Lap qaranquş yuvasının altında!.. Əgər Aytac evdə olsaydı, əlbəttə, buna razı olmazdı. Ancaq o, əmisigilə getmişdi. Evə axşamçağı qayıtdı. Tez mətbəxə qaçıb yuvaya baxdı. Qaranquşlar orada yox idilər. Bacadan hələ də tüstü çıxırdı.

Elə bu vaxt bayırdan qaranquşların yazıq-yazıq civiltiləri eşidildi. Aytac tez həyətə qaçdı. Qaranquşlar bacaların dövrəsinə hərlənir, tüstüdən içəri girə bilmirdilər.

Səhər Aytac yuvanı boş gördü. Qaranquşlar hərdən gəlib bacaların ətrafında uçuşur, sonra uzaqlaşırdılar.

O il qaranquşların balaları çıxmadı. Onlar deyəsən inciyib küsdülər. Payız soyuqları düşməmiş, səssiz-səmirsiz köçüb getdilər.

Bir dəfə babası Aytacı qucağına alıb yuxarı qaldırdı. Aytac yuvaya baxdı. Orada dörd qaranquş yumurtası qalmışdı.

Babası dedi:

-Bunlar xarab olub, daha bala çıxarmaz.

Aytac yumurtaları götürdü ki, gələn yaz qaranquş yuvanı boş görüb yumurtlasın və yenidən bala çıxarsın...

Payız da, qış da gəlib keçdi. Aytacgilin həyətlərindəki iri salxım söyüdün hovuza sallanmış budaqları yavaş-yavaş yaşıllandı. Qışda dənizin bozumtul görünən suları durulub, gömgöy oldu. Xəzri buludları qovur, göyün üzü açılırdı.

Hər il bu vaxt qaranquşlar gələrdi... Bəs hanı qaranquşlar, haradadırlar? Aytac nigaran qalmışdı. Onun gözləri yolda, qulaqları səsdə idi. Görəsən bu il qaranquşlar gələcəklərmi?

Aytac yuxuda gördü ki, qaranquşlar

"GÖYƏRÇİN"in SOVQATI



gəlib, yenə evlərinin dövrəsinə hərlənərək, şən-şən ötüşürlər.

O, sevincək əl çala-çala çığırdı:

-Ay can, ay can, qaranquşlarım gəldi...

Öz səsinə yuxudan ayıldı. Hər şey bir anda yox oldu. Aytacı ağlamaq tutdu. Amma birdən yenə qaranquşların səsini eşitdi. Tez durub bayıra qaçdı, gördü ki, qaranquşlar gəlmişlər. Onlar bacaların dövrəsinə hərlənir, içəri gurub yuvaya qonurdular.

Aytac hoppana-hoppana çığırdı:

-Xoş gəlmisiniz, ay mənim qaranquşlarım, xoş gəlmisiniz!

Qaranquşlar da Aytacın başı üstündə qanad açıb şən-şən uçur, sanki onu salamlayırdılar.

***"Göyərçin" jurnalı, 1967, N3***

**Rəssam**
Aytən